Zərəngiz Demirçi Qayalı

## Başımın Üstdən

Göy gəldi boşaldı başımın üstdən,
Karvanlar yeridi yaşımın üstdən,
Qərinələr mənə əl elədilər,
Dolandı əsrlər huşumun üstdən!

Durna qatarında nəzərim qaldı,
Lalə tək bağrımda kədərim qaldı,
Elə möhürləndi dilim, ağızım,
Lal qayaya, daşa bənzərim qaldı!

Bir ömür istədim, min cəfa verdin,
Namərdə gün verdin, zövq, səfa verdin,
Canım fəda sənə, ərənlər Piri,
Namərdlə savaşda hünərim qaldı!

Hayıf, yüyürmədim, yetmədim, nahaqq!
Qocalı, uşaqlı yandırıldı xalq!
Elə gələn dərdi olmur saxlamaq,
Odların içində çəpərim qaldı!

*Zərəngiz*, bir dedin, bir də söyləmə,
Heç gedən yolçunu yoldan eyləmə,
Məni unudubdur Allah'ım, demə!
Mövlamdan qurulmuş sipərim qaldı!